*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 509-515*

https://doi.org/10.62837/2025.6.509

**ZAUR YƏDULLA OĞLU AĞAZADƏ**
**Lənkəran Dövlət Universiteti . doktorant.**
z.ağazade@mail.ru

# AZƏRBAYCAN XALQ ƏDƏBİYYATINDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN POETİK İFADƏSİ

**Açar sözlər: Vətən ,yurd sevgisi,atalar sözü və məsəllər,"Kitabi –Dədə Qorqud",bayatılar.**

**Xülasə**

İzahlı dilçilik lüğətlərinin Vətən sözünün açıqlaması ilə yanaşı, onu da demək lazımdır ki, Vətən məfhumu, Vətən anlayışı daha geniş məzmuna , geniş statusa, yüksək məna yükünə malikdir. Vətən məfhumunun hər bir insanda oyatdığı anlayışın sərhəddi təkcə doğulduğu, anadan olduğu məkanla,yurd yeri ilə məhdudlaşmır. Bərəkətli, barlı- bəhrəli Azərbaycan torpağının hər qarışı, hər güşəsi hər birimiz üçün əzizdir, doğmadır. Çünki Vətəndir! Müzəffər Azərbaycan ordusunun əzmi, şəhidlərimizin qanı hesabına azad edilmiş müqəddəs Qarabağ torpaqları, qədim Şuşa, Laçın, Kəlbəcər və digər yurd yerləri hər birimizə əziz və doğmadır. Çünki Vətəndir!

Vətən həm də ana dilimizdir, milli-mənəvi-tarixi sərvətlərimizdir. Bu ulu varlıqları sevmək, qorumaq hamının borcu, müqəddəs vəzifəsidir. Vətən sevgisi vətəndaşlıq, vətənə övlad duyğularından qaynaqlanır. Müqəddəs kitabımız "Qurani-Kərim", eləcə də əski mədəniyyət abidələrimiz vətən sevgisinin onu qorumaqdan torpaqlarımıza göz dikən yadellilərlə vuruşmaqdan ibarət olduğunu dönə-dönə bildirilmişdir.Vətən sevgisi ,vətənpərvərlik tərbiyəsi Azərbaycan xalq ədəbiyyatının müxtəlif janırlarında öz yüksək poetik ifadəsini tapmışdır .Məqalədə həmin məsələyə aydınlıq gətirilir.

**ZAUR AGAZADE**

## EXPRESSION OF PATRIOTIC EDUCATION IN AZERBAIJANI FOLK LITERATURE

**Keywords:** Homeland, love for the native land, proverbs and sayings, *The Book of Dede Korkut*, bayatis

**Summary**

In addition to the definition of the word "Homeland" in explanatory linguistic dictionaries, it must be emphasized that the concept of Homeland holds a broader meaning, a wider status, and a deep emotional and spiritual value. The idea of Homeland evokes feelings in every individual that are not limited only to the place of birth or origin. Every corner of the fertile and rich Azerbaijani land is dear and sacred to us—because it is our Homeland! Thanks to the determination of the

victorious Azerbaijani army and the blood of our martyrs, the sacred lands of Karabakh, including ancient Shusha, Lachin, Kalbajar, and other regions, have been liberated and are equally precious to us—because they are our Homeland!

The Homeland also encompasses our native language, national, spiritual, and historical treasures. Loving and protecting these eternal values is a sacred duty for all. Love for the Homeland stems from a sense of citizenship and belonging. The Holy Qur'an, as well as ancient cultural monuments, repeatedly emphasize that love for the Homeland is demonstrated by protecting it and fighting against foreign threats. Patriotism and the love for one's homeland have found high poetic expression in various genres of Azerbaijani folk literature. This article sheds light on these important aspects.

**Заур Ядулла оглы Агазаде**

**Поэтическое выражение патриотического воспитания в азербайджанской народной литературе**

**Ключевые слова:** Родина, любовь к родному краю, пословицы и поговорки, *Китаби – Деде Коркуд*, баяты.

**Резюме**

В дополнение к толкованию слова «Родина» в толковых лингвистических словарях необходимо отметить, что понятие Родины обладает более широким содержанием, высоким статусом и глубокой смысловой нагрузкой. Осознание Родины у каждого человека не ограничивается лишь местом рождения или родным краем. Каждый уголок плодородной и богатой земли Азербайджана дорог и свят для нас. Потому что это — Родина! Освобождённые священные земли Карабаха, такие как древние Шуша, Лачин, Кельбаджар и другие родные края, стали нам особенно близки благодаря мужеству Победоносной Азербайджанской армии и крови наших шехидов. Потому что это — Родина!

Родина — это также наш родной язык, наши национальные, духовные и исторические ценности. Любить и охранять эти вечные богатства — священный долг каждого. Любовь к Родине проистекает из чувства гражданственности и сыновней преданности. Священная книга Коран, а также древние памятники культуры неоднократно подчеркивают, что любовь к Родине выражается в её защите и борьбе с посягательствами чужеземцев. Воспитание патриотизма и любви к Родине нашло высокохудожественное выражение в различных жанрах азербайджанского народного творчества. В статье освещаются эти важные вопросы.

**Giriş**

Azərbaycan xalqının vətənpərvərlik,tərbiyəsinin vətənsevərlik ruhunun ənənə tarixi qədim və zəngindir. Bütün ictimai-siyasi quruluşlar zamanı xalqımız milli mənliyini qorumağa çalışmış, adət və ənənələrini yaşatmışdır. Bu cəhətdən xalq ədəbiyyatının rolu misilsizdir. Xalqın dünyabaxışında insan və onun mənəvi dünyası

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 509-515

əsas yeri tutmuşdur. Söz və fikir bahadırları, o cümlədən pedaqoq və alimlər insan tərbiyəsindən söhbət açarkən vətənpərvərlik tərbiyəsini önə çəkmiş, vətən gözəlliklərinin tərənnüm etməklə yanaşı, vətəni qorumağın müqəddəs vəzifə olduğunu dönə-dönə qeyd etmişlər.

Tarixi təcrübə sübut edir ki, müstəqilliyə, istiqlala aparan yollar mücadilə, mübarizə tarixidir. Hər dəfə qəfil zərbələrə məruz qalan xalqımız azadlığa, istiqlala vətənpərvərlik, vətənçilik şüurunun əzmi sayəsində nail olmuşdur.

Uşaqların, yetişməkdə olan nəslin əxlaq tərbiyəsi bütün zamanlarda insanlığın yol yoldaşı olmuşdur.Tarixin bütün mərhələlərində əxlaq biliciləri mövzuya aydınlıq gətirməyə çalışmış, elmi-nəzəri, eləcə də milli-mənəvi irsimizin qaynaqlarında vətənpərvərlik tərbiyəsi,milli əxlaq haqqında işıqlı fikirlər söylənilmişdir. Bu cəhətdən "Qurani-Kərim"dən, "Avestadan","Kitabi-Dədə Qorqud"dan, eləcə də Sədi Şirazinin "Gülüstan" və"Bustan", Cəlaləddin Ruminin "Məsnəvi", Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" kimi heç zaman aktuallığını itirməyən əsərlərindən, həmçinin milli ziyalılarımızın, şair və yazıçıların düşüncələrindən faydalanmaq, istiqamət almaq olduqca vacibdir.

**Əsas hissə**

Vətən, yurd sevgisi həm də el-oba birliyindən keçir. Elini, ulusunu, xalqını, dilini bəyənməyəndən vətən sevgisi gözləmək mümkün deyildir. Əski mədəniyyət, söz, fikir xəzinəmizdən olan "Oğuznamə"də bu istiqamətdə deyilənlər bu günümüz üçün də xarakterikdir, aktuallıq kəsb etməkdədir:

- El ilə gələn bəla bayramdır.
- Ulusun bəyənməyən evinə boş varır.
- Qonşun kim isə, qardaşın oldur [8, s.146].
- Köçdüyün yurdun qədri qonduğun yurtda bilinər[8, s.168].

Xalq deyimləri, işıqlı müdrik fikirlər xalqın qanun, əxlaq dərsliyinə çevrilmiş, zaman-zaman ən çətin məqamlarda insanlara həqiqət yolunu göstərmişdir. Apardığımız əhatəli, çoxsaylı araşdırmalar sübut edir ki, nəsildən-nəsilə ötürülən bu zəngin xəzinədə vətən sevgisi, yurd sevgisi ilə bağlı düşüncələr çoxluq təşkil etməkdədir.

Xalqımız vətəni, yurd yerini iman yeri bilmiş, vətəni səcdəgah saymışdır. "Vətənə gəldim, imana gəldim", - deyərək vətəndən uzaqlarda olanda hicran, ayrılıq əzabı çəkmiş, doğma vətənlə qovuşmağı əsl səadət hesab etmişdir Xalqımızın tanınma nişanı hesab edilən şifahi xalq ədəbiyyatımızda, qədim ana kitabələrimizdə igidlik, qəhrəmanlıq, yurda, torpağa bağlılıq, ata-ataya sevgi hisslərinin bədii ifadəsini görür, yurda xor baxan düşmənlərə nifrət ifadə olunur, torpaq, yurd uğrunda vuruşmaq, şəhid olmaq şərəf işi sayılır.

Xalq müdrikliyinin ifadəsi olaraq əsrlərdən süzülərək dövrümüzə, zamanımıza qədər gələn, öz məna tutumunu saxlayan ata deyimlərində yurda bağlılıq, vətən, torpaq sevgisi bu gün də aktuallığını saxlamaqdadır. Folklorşünas

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 509-515*

Ə.Hüseynzadənin tərtib atalar sözü və məsəllərimizlə bağlı təqdim edilən çoxsaylı nümunələr buna misaldır:

- Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
- Gözsüz yaşamaq olar, Vətənsiz yox.
- Qürbət görməyən adam Vətən qədrini bilməz.
- Yurdan çıxsan da, eldən çıxma.
- El sevəni aləm sevər.
- Birlik olmayan yerdə dirilik olmaz.
- Birlik harada, dirilik orada və s. [ 2, s.14-15].
- Abadan kənd tüstüsündən məlum olar.
- Anam kimi yar olmaz, ölkəm kimi diyar.
- Yarından ayrıdan yeddi il ağlar, yurdundan ayrılan ölüncə ağlar.
- Köçən yurdun qədrini düşən yurdda bilərlər[3, s. 7-8].

Bu kimi misalların sayını artırmaq da mümkündür. Danılmaz həqiqətdir ki, xalq ədəbiyyatının bütün növ və janrlarında, xüsusən bayatı və nəğmələrimiz, atalar sözü və məsəllərdə, eləcə də nağıl və dastanlarımızda xeyirlə şərin mübaizəsində xeyirin qələbəsi təbliğ olunur, vətənpərvərlik duyğuları poetik ifadəsini tapır. Prof.Ə.Həşimov "Azərbaycan xalq pedaqogikası" kitabında bu məsələlərə geniş aydınlıq gətirərək demişdir: "Azərbaycan xalqı vətənpərvər xalqdır. Onun çox qədim zamanlardan özünəməxsus məskəni olmuş və həmin məskənə olan məhəbbət hissi azərbaycanlıların özlərinin inkişafı ilə sıx əlaqədə inkişaf edib uzun əsrlər ərzində möhkəmlənmiş və mənəvi həyatımızın ən başlıca tərkib hissələrindən birinə çevrilmişdir"[4, s. 182].

Qeyd olunan əsərlə yurd sevgisi, yurda bağlılıq telləri, vətənpərvərlik hissinin poetik ifadəsi konkret folklor motivləri əsasında geniş təhlilə cəlb olunmuşdur. Maraqlı cəhət həm də ondadır ki, alimin gəldiyi qənaətlər yaşadığımız günləri, erməni işğalçılarına qarşı zaman-zaman, xüsusən 44 günlük İkinci Qarabağ savaşında apardığımız mübarizənin mahiyyətini bir daha ortaya qoyur. Bu cəhətdən alimin dastan və nağıllarımızda vətənpərvərlik hissinin ifadəsi ilə bağlı fikirləri böyük maraq doğurur: "Xalqımızın vətənə bəslədiyi atəşin sevgisinin təzahürü dastan və nağıllarımızda da geniş şəkildə verilmişdir. (Bax:"Kitabi-Dədə Qorqud", "Yeddi qardaş, bir bacı", "Fələtin nağılı" və s.) Xalq pedaqogikası nümunələrində ifadə olunmuş fikirlərə görə," öz doşabına qənaət eyləmək, özgənin balından yaxşı" olduğu kimi, doğma torpaqda ellə birlikdə keçirilən adi həyat, özgə diyarda şah kimi yaşamaqdan çox-çox yaxşıdır. Xalq gənc nəslin məhz bu cür vətənpərvərlik ruhunda tərbiyə olunmasını lazım bilmişdir...Xalq öyrədir ki:

Durna sanından keçər,
Ötər sanından keçər.
İgid vətən yolunda,
Ölər, canından keçər.[3. s. 183].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 509-515*

Azərbaycan xalqının ana ədəbi abidəsi sayılan, əsrlərin dərinliyindən xalqımızın həyata, dünyaya baxşısından bu günümüzə xəbər verən möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanı əslində vətənpərlik duyğuları ilə yoğrulmuş həqiqi vətənçilik dastanı, milli-mənəvi dəyərlərimizin güzgüsüdür. El igidi Buğacdan tutmuş Beyrəyə, Qazan xana, Uruza, Qanturalıya, Basata, Yeynəyə, Qaraca Çobana və digər dastan qəhrəmanlarının hünərlərini yeni tarixi şəraitdə təkrar edən, yağıya əyilməyən nə qədər iftixar ediləsi, qürur duyulası qəhrəmanlarımız vardır. Bu həm də onunla bağlıdır ki, xalqımızın kökü vardır, yenilməz milli əxlaqı vardır. Bu haqda danışarkən dastanın "Qanlı Qoca oğlu Qanturalı boyu"ndan misal çəkmək istəyirik. Yad eldə Trabzon təkürünün qızı Selcan xatunu sevib bəyənən, igidlik göstərib mətləbinə istədiyinə çatan Qanturalıya oğuza getməyib qızla birlikdə təkurun yurdunda yaşamaq təklif olunur. Qanturalının, türk oğuz igidinin həmin yalançı təklifə münasibəti qüruruvericidir: "Ozan gəldi, gəlin havası çaldı. Oğuz igidinin sinəsi qabardı, qılıncını çıxarıb yeri çaldı-çapdı. Dedi ki, "yer kimi çatlayım, torpaq kimi sovrulum, qılıncımla doğranım, oxuma sancılım, oğlum doğulmasın, doğularsa, on günlük olmasın, əgər bəy atamın və xanım anamın üzünü görməmiş bu otağa girib yatsam". Çadrının iplərini açdı. Dəvələrini nərildətdi, atlarını kişnətdi. Gecəni gündüzə qatdı, köçdü" [ 6, s.255].

Həmin ibrətamiz səhnə oğuz igidinin,bütünlükdə oğüzluğun ,türkliyin simasında vətənə, yurda, doğmalara bağlılığın əzəli,əbədi xarakterini, bildirməklə, xalqımızda vətən təəssübünün, yurd sevgisini bütün sevgilərdən mənəvi ,cismanı həzzlərdən üstün oluğunu ifadə etməkdədir.

Yurdun hər çiçəyi dağı-daşı vətən olduğu qədər həm də məlhəmdir."Kitabi-Dədə Qorqud" dastanında ətrafındaki xainlərin, xəyanətkar insanların hiyləsinə aldanan, Dirsə xan oğlunun tərbiyəsiz,əxlaqsız hərəkətlər etdiyinə inanan, bu səbəbdən öz ciyərparəsini öldürmək niyyətilə atdığı oxla ağır yaralayan igid Buğacın yarasına ana südü ilə dağ çiçəyinin məlhəm olması, əslində, simvolik məna daşıyır, ananın, dağın, dağ çiçəklərinin vətən anlamını ifadə etməsinə diqqəti çəkir [6]. Dastanın"Qazan xanın evinin yağmalanması boyu"nda elindən-obasından narahat olan Qazan xanın ilk olaraq yurdla salamlaşması da Vətən sevgisinin bariz nümunəsidir:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sığına-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Uca evimin tikilişi, yurdu qalmış,
Qoca anamın oturduğu yerdə qalmış.
Oğlum Uruzun ox atdığı nişan qalmış,
Bəylərin at çapdırdığı meydan qalmış,
Qara mətbəxin yerində ocaq qalmış"[6, s.191].

Hər misranın, hər sətrin arxasında vətən tarixinin həyəcan dolu səhifələri,son döyüşə köklənən yurd ,ocaq ,vətən ,xalq qəhramanının qarşısıalınmaz cavab səhnəsi boylanır, bizə qürur hissləri yaşadır.

Görkəmli yazıçı-tənqidçi Mehdi Hüseyn "Kitabi-Dədə Qorqud" dastanından danışarkən məhz həmin məqamlara xususi diqqət ayırmış, oğuz igidlərinin qəhrəmanlığını vətən sevgisiylə əlaqələndirmişdir: "Xalqımıza bu büyük qüdrəti verən nədir? Hər şeydən əvvəl, əlbəttə, vətən məhəbbəti, patriotizmdir. Məlumdur ki, qəsbkarda, istilaçıda və quldurda bu məhəbbət yoxdur və ola bilməz. O, başqalarının zəhməti hesabına yaşamaq istəyir, başqalarını özünə möhtac etmək istəyir, hər cəhətdən rəzil olduğu halda, özünü başqalarından üstün hesab edir. Lakin ona müqavimət göstərən xalq həm maddi, həm də mənəvi cəhətdən qat-qat güclüdür. O vətən üçün, namus və şərəf üçün canından keçən qəhrəmanlar tərbiyə edib böyütmüşdür" [5 s. 367].

Bu fikirlərin işığında son illərin tarixi hadisələrinin gözlərimiz önünə gətirir, qəsbkarlara, erməni işğalçıların qarşı haqlı savaşımızı, yada salır bu savaşda vətən yolunda canından keçən igidlərimizi ehtiramla anırıq.Qəhramanlıqlar təkrar olunur şərəfli tariximizin yeni bir səhifələri şəhid və qazilərin qanı ilə yazılır .

Vətən sevgisi sərhəd tanımır. Yurdda bitən hər daşın, hər çiçəyin də öz ətri, öz həyatı vardır. Xalq yazıçısı Anar qürbət diyarda, doğma Qarabağdan uzaqlarda Tehranda şah sarayında yaşayan Qarabağ gözəli, İbrahim xanın sevimli qızı Ağabəyim Ağanın vətən sevgisi haqqında danışaraq demişdir: "İbrahim xanın qızı Ağabəyim Ağa siyasi sövdələşmələrin qurbanı olub, sevmədiyi, tanımadığı Fətəli şahın hərəmxanasına düşüb. Ağabəyim Ağanın vətən həsrəti, qürbətdə keçən intizarlı ömrünün acısı, Vaqiflə məktublaşması haqqında poetik əfsanələr var, amma Ağabəyim Ağanın öz əliylə yazdığı bayatı onun könlündəkiləri bütün əfsanələrdən daha dəqiq açır:

Əziziyəm Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Rəvayətlərdə deyilir ki, həsrətdən sarılıb solan zövcəsinin könlünü oxşamaqçün Fətəli şah hətta ancaq Cıdır düşündə bitən Xarı bülbül gülünü də Tehrana gətirdib, saray bağında əkdirib. Amma bu gül də burada bitməyib"[1, s.57].Vətənpərvərlik tərbiyəsinin seçmə nümunələri məktəblilərin,xususən ibtidai sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsində müstəsna yerə malikdir.

## Nəticə

Xalq ədəbiyyatının zəngin xəzinəsindən nümunə olaraq gətirdiyimiz misallar sübüt edir ki,xalq həmişə vətənpərvərlik tərbiyəsinə xususi diqqət ayırmış,insanların ,xususən uşaqların düzgün tərbiyəsində bunlardan faydalanmağa çalışmışdırlar.Heç

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 509-515*

şübhəsiz, bu kimi misalların, poetik nümunələrin sayını artırmaq da mümkündür.Xalq ədəbiyyatı öz zəngin xəzinəsindən yazılı ədəbiyyatımıza da vətənpərvərliklə bağlı çoxsaylı sujetlər vermiş və bu mövzu,bədii ədəbiyyatın əsas mövzularından biri kimi poetik ifadəsini tapmışdır.

**İstifadə olunmuş ədəbiyyat.**

1.Anar.Dünya bir pəncərədir.Bakı,Gənclik,1986
2.Atalar sözü.Toplayan Ə.Hüseyinzadə,Bakı,Yazıçı,1981
3. Atalar sözü .Toplayan Ə.Hüseyinzadə,Bakı,Yazıçı,1965
4. Həşimiv Ə.Ş .Azərbaycan xalq pedaqoqikası ..Bakı,Ünsiyyət ,2000
5. Hüseyin .M .Əsərləri 10-cilddə, Bakı,Yazıçı,19796.”Qurani- Kərim”, Bakı, Azərnəşr,1991
7.Oğuznamə,Bakı ,Yazıçı ,1987
8 ”Kitabi-Dədə Qorqud”Tərtib edəni: prof S.Əlizadə,Bakı,Öndər.Nəşriyyatı ,2004

**Rəyçi,Piralı Behbudalı oğlu Əliyev p.e.d.prof .**